**Qarabağın işğaldan azad edilməsi ilə başa çatan Vətən müharibəsi Azərbaycan gənclərinin vətənpərvərliyinin, yurd sevgisinin, torpaq məhəbbətinin nə qədər yüksəkdə dayandığını bir daha nümayiş etdirdi. Gənclər həyatın müxtəlif sahələrində çox uğurla fəaliyyət göstərir, ölkəmizin ümumi inkişafına böyük töhfə verirlər. Ölkəmizdə həyata keçirilən gənclər siyasətinin mahiyyətində azərbaycançılıq ideyası dayanır. Ağcabədi rayonunda Gənclər üçün Təhsil Mərkəzi (GTM) Qarabağ regional ofisinin təşkilatçılığı ilə 2 Fevral - Azərbaycan Gəncləri Günü münasibətilə keçirilən tədbirdə bu barədə ətraflı söz açılıb.**

# Gənclik zamanın səsidir



Tədbirdə rayon icra hakimiyyətini, Saffarma və Medical Media MMC -nin, Bank VTB ASC-nin, M-Trans MMC-nin, AZRİB MMC-nin, "Aztrade Company"nin, GTM Qarabağ ofisinin, Ağcabədi regional "ASAN xidmət" mərkəzinin nümayəndələri və gənclərin inkişaf və karyera mərkəzinin Ağcabədi nümayəndəliyinin könüllüləri iştirak ediblər. Gənclər üçün Təhsil Mərkəzi (GTM) Qarabağ regional ofisinin rəhbəri Radə Telmanqızı 2 fevral - Azərbaycan Gəncləri Günü münasibətilə tədbir iştirakçılarını təbrik edərək deyib ki, gənclər hər bir dövlətin gələcəyini, inkişafını istiqamətləndirən sivil cəmiyyətin aparıcı qüvvəsidir. Qeyd edilib ki, respublikamızda gənclərə diqqət və qayğı davamlı xarakter alıb, onların üzləşdiyi problemlərin həlli istiqamətində mühüm işlər həyata keçirilir.

Sonra tədbir "Peşəkar həyat və karyera" mövzusunda şəxsi inkişaf və karyerayönümlü təlim-seminarla davam edib. "Uğurlu karyera" adlı mühazirədə təlimçinin peşəkar yanaşmaları və şəxsi təcrübəsi əsasında tələbələrə uğurlu karyera quruculuğu haqqında məlumat verilib. Təlimin yekununda uğurlu karyera mövzusunda iştirakçıları düşündürən suallar cavablandırılıb və bir qrup fəal gəncə Gənclər üçün Təhsil Mərkəzi (GTM) Qarabağ regional ofisi tərəfindən Fəxri fərman və hədiyyələr təqdim edilib.

**Salman ALIOĞLU,**
**"Respublika".**